შეფასებისა და გამოცდების
ეროვნული ცენტრი

İyul, 2026

# Təsviri və tətbiqi incənət üzrə test

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Praktiki tapşırığa praktiki tapşırığa məxsus olan vərəqdə əməl edin. Praktiki tapşırığa (tapşırıq 26) əməl etmək üçün sizə karandaş, yazıpozan və karandaş itiləyən lazımdır.

Praktiki tapşırıq üçün lazım olan vərəqədə karandaşla işləyin! Karandaşdan yalnız bu tapşırığa əməl etmək üçün istifadə olunmasına yol verilir.

Testin maksimal xalı  60-dır.

Testə əməl etmək üçün 4 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

Sonrakı səhifəyə keçmək və geri qaytarmaq üçün klaviaturadakı düymədən istifadə edə bilərsiniz

**1-19 №-li tapşırıqlar üçün təlimat** (Hər düzgün cavaba 1 bal verilir) **-** Hər tapşırığa dörd mümkün cavab verilir. Onlardan yalnız biri düzgündür. Seçdiyiniz cavabı cavablar vərəqində aşağıdakı kimi qeyd edin: cavablar vərəqinin müvafiq xanasında X işarəsini yazın. Elektron proqram başqa heç bir qeydi, şaquli və ya üfüqi xətləri, müxtəlif işarələri və s. qəbul etmir. Əgər siz cavablar vərəqində qeyd etdiyiniz cavabı yenidən düzəltmək istəyirsinizsə, X-lə qeyd etdiyiniz xananı bütünlüklə rəngləyin və sonra düzgün cavabın yeni variantını yazın (X işarəsini yeni xanada qeyd edin). Rənglədiyiniz cavabın yenidən seçilməsi qeyri-mümkündür.

(1) **1. İllüstrasiyada hansı memarların əsərlərinin kompilyasiyası əsasında yaradılmış interpretasiya təqdim olunmuşdur?**



ა) Frenk Qeri və Frenk Lloyd Raytın;

ბ) Zaha Hadidi və Yorn Utzonun;

გ) Antoni Qaudi və Le Korbuzyenin;

დ) Santyaqo Kalatrava və Qustav Eyfelin.

(1) **2. Kompozitiv orderin xarakterik əlaməti hansıdır?**

ა) Sütun bazasız birbaşa stereobatda durur;

ბ) Kapitelin dekoru akant yarpaqları və volyutaların sintezi ilə seçilir;

გ) Sütun nəhəng, həndəsi cəhətdən sərt və sadədir;

ღ) Sütun dərin kanelurlarla bəzədilib, kapitel isə volyutalarla.

(1) **3. Fotoda hansı ən qədim sarayın relyefi verilib?**



ა) Nineviyada Aşşurbanipal Sarayı;

ბ) Dur-Şarrukində II Sarqonun Sarayı;

გ) Persepolun Apadanası;

დ) Maridə Çar Zimrilimin Sarayı.

(1) **4. Hansı xüsusiyyət Kolizeyə uyğun** ***<u>deyil?</u>***



ა) Tikilinin planında ellips forması var;

ბ) Tamaşaçı yerləri dörd yarusa bölünüb;

გ) Kələ-kötür landşafta orqanik şəkildə uyğunlaşdırılıb;

დ) Yarusların aşağısında tağlı qalereyalar yerləşdirilib.

(1) **5. Kolizeydə işlənmiş hansı memarlıq həlli bu gün də stadion tikintisində istifadə olunur?**



ა) Effektiv logistika üçün arenanın altında müxtəlif təyinatlı dayanacaqların yerləşdirilməsi;

ბ) Stadionun sürətlə boşaldılması vasitəsi kimi qalereyalar sistemi və çoxsaylı çıxış;

გ) Divarların yüngüllüyünü müəyyən edən pilyastrlar və üç sıra tağdan ibarət fasad;

დ) Arena ilə tamaşaçılar arasında qoruyucu sədd kimi tağların başında ucaldılmış boş divar.

(1) **6. Tərcüməsi kələ-kötür səthi bildirən, dinamizm, dramatizm və rənglə işıqlandırmanın ziddiyyəti ilə xarakterizə olunan XVII əsrin Qərbi Avropa incəsənət üslubu adlanır:**

ა) Barokko;

ბ) Rokoko;

გ) Romantizm;

დ) Ar-nuvo.

(1) **7. Albrext Dürerin təqdim edilən əsəri hansı texnikada yaradılmışdır?**




ა) Qravüra;

ბ) Yağlı texnika;

გ) Quaş;

დ) Tuş.

(1) **8. Pikassonun təqdim edilən rəsmində hansı mədəniyyətə aludəçilik özünü göstərir?**




ა) Hind;

ბ) Afro-Amerika;

გ) Yapon;

დ) Orta Əsrlər.

(1) **9. Təqdim olunan nümunələrdən hansı impressionist üslublu əsərdir?**

| ა) | ბ) | გ) | დ) |
|---|---|---|---|
|  |  |  |  |

(1) **10. Ekspressionizmə hansı tərif uyğun gəlir?**

ა) İnsana qarşı xüsusi maraq, onun ideal, ümumiləşdirilmiş bədii obrazının əsərdə dərk edilməsi və əks olunması;

ბ) Sürətlə dəyişən dünyada anın təkrarolunmazlığının və ani vizual təəssüratın əks olunması;

გ) Deformasiya-stilizə etmə, formaların təhrif edilməsi, ifadəliliyin və emosional təsirin gücləndirilməsi;

დ) Hadisənin və əşyanın əsas mahiyyətinin, ətraf aləmin ümumi, əbədi vəziyyətinin əsərdə axtarışı və əks olunması.

| (1) **11. Təqdim olunan rəssamlıq nümunələrindən hansı Lado Qudiaşvilinin yaradıcılığına aiddir?** | | | |
|---|---|---|---|
| ა)<br> | ბ)<br> | გ)<br> | დ)<br> |

| (1) **12. Təqdim olunan fəvvarə nümunələrindən hansı Covanni Lorenzo Berniniyə *<u>aid deyil</u>*?** | | | |
|---|---|---|---|
| ა)  | ბ)  | გ)  | დ)  |

(1) **13. Təqdim olunan nümunəni İtaliya İntibahının xarakteristikasına yaxınlaşdıran xüsusiyyət hansıdır?**



ა) İşıq-kölgə ilə modelləşdirilmiş həcmli formalar;

ბ) Dəqiq kontur rəsmi ilə yaradılmış şərti ifadə vasitələri;

გ) Fiqurun şərti peyzaj fonunda deyil, reallığa yaxın olan mühitdə yerləşdirilməsi

დ) Təsvirlərin detallarının səylə işlənilməsi.

(1) **14. Verilmiş uyğunluqların məntiqini müəyyənləşdirin və hansı cütlüyün uyğun gəlmədiyini təyin edin.**

ა) Mikelancelo Buonarotti – Lorenzo Bernini;

ბ) Rafael Santi – Mikelancelo Meriz da Karavacco;

გ) Cambolonya - Artemisiya Centileski;

დ) Leon Battista Alberti – Françesko Borromini.

(1) **15. Qədim Yunanıstanda Son Klassika Dövründə hansı heykəltəraşlar fəaliyyət göstərmişlər?**

ა) Fidi, Miron, Praksitel;

ბ) Praksitel, Skopi, Lisipp;

გ) Aqesandr, Leoxar, Fidi;

დ) Miron, Fidi, Poliklet.

(1) **16. Sadalananlardan hansı modernizmin xüsusiyyətini təsvir edir?**

ა) Bədii formanın lakonikliyi və sadəliyi, ifadəli jestikulyasiya və təhrif edilmiş, şərti formalar, sərbəst işlənmə tərzi;

ბ) Frontal cəhətdən açılmış, aydın, tektonik şəkildə quraşdırılıb başa çatdırılmış kompozisiya, səylə icraetmənin rəngkarlıq tərzi;

გ) Bir-birinin yanına çəkilmiş cəld, qısa, qarışdırılmamış, müxtəlif rəngdə yaxmalar, hərəkət və işıq effektinin yaradılması;

დ) Təhrif edilmiş, təsviri forma, mürəkkəb, diaqonal kompozitiv struktur, dəqiq kontrast işıqlandırması.

(1) **17. Bu növdə boyanın müqayisəolunmaz bədii üstünlüyü var. Təsvirin üzərində işlədikdə onları intensiv şəkildə qarışdırmaq, laylarla yaxmaq, dəyişiklik etmək olar. Rəng dərin və çalarlı, yumşaq və davamlıdır. Onun vasitəsilə müxtəlif xarakterli təsvir yaradılır – hamardan pastoza qədər.**

**Söhbət hansı boyadan gedir?**

ა) Quaş;

ბ) Yağlı;

გ) Akvarel;

დ) Tempera.

(1) **18. Təqdim olunan kompozisiyada hansı əsas təsvir vasitəsi üstünlük təşkil edir?**



ა) Xətt;

ბ) Rəng;

გ) Forma;

დ) Faktura.

(1) **19. Hansı cərəyanın rəssamları hərəkəti ifadə etmək üçün Altamira təsvirinin müəllifinin müraciət etdiyi oxşar üsuldan istifadə ediblər?**



ა) Ekspressionizm;

ბ) İmpressionizm;

გ) Futurizm;

დ) Dadaizm.

**№ 20-25 tapşırıqlar** “*Düzgündür-səhvdir”*

**Tapşırığın təlimatı** – verilmiş müddəalarla diqqətlə tanış olun. Onların düzgün və ya səhv olduğunu müəyyən edin. Əgər müddəanı düzgün hesab edirsinizsə, müvafiq xananı işarələyin. Belə hallarda şərh tələb olunmur. Əgər müddəanı səhv hesab edirsinizsə, müvafiq xananı qeydə alın və verilmiş sahədə düzgün ifadəni yazın.

**Qeyd:** Müddəa səhvdirsə, ona uyğun gələn düzgün termini/sözü yazın və yaxud verilmiş terminin/sözün düzgün izahını yazın.
<u>Nəzərə alın</u> ki, verilmiş müddəanın təsdiq halı inkar halı ilə və əksinə dəyişdirildikdə cavab qəbul olunmayacaqdır.
**Nümunə:**



(1) **20. Barokko memarlığının əsas xüsusiyyəti həndəsilik, müstəvi üzərində şaquli və üfüqi xətlərin üstünlük təşkil etməsi, sadə həndəsi formalardır.**

(1) **21. Dördbucaqlı formaya malik rəssamlıq əsərinə tondo deyilir.**

(1) **22. Abstraksionizm incəsənətin ənənəvi yüksək dəyərlərini şübhə altına aldı və cəmiyyətə incəsənətin kommersiyalaşdığını göstərdi.**

(1) **23. Memar Antonio Qaudi tərəfindən yaradılmış *Saqrada Familia* qotika dövrünün ən mühüm məbədlərindən biridir.**

(1) **24. Rəsmdə işıqlandırma nəinki formanın modelləşdirilməsinin, eləcə də məkan illüziyasının yaradılması vasitəsidir.**

(1) **25. Təqdim olunan incəsənət nümunəsi pastellə yerinə yetirilmişdir.**



(7) **№ 26 tapşırıq.** ***Praktik iş***

**Təlimat:**

**Tapşırığın təlimat:** Fotoda təqdim olunan həndəsi formalarla yaradılmış heykəlin quruluşunu dərk edin və onun qrafik versiyasını çəkin. Kompozisiyanın paylanma prinsipini nəzərə alın; detalların müvafiq proporsiyalarına riayət edin, işıq və kölgənin dəyişməsi ilə onlara həcm verin. Düşən kölgələri çəkərkən işığın istiqamətini müəyyənləşdirin.
Tapşırığı praktik iş üçün nəzərdə tutulmuş kağız üzərində yerinə yetirin.



**№ 27-29 tapşırıq.**
***Xronologiyanın müəyyənləşdirilməsi***

**Tapşırığın təlimatı** – Bədii cərəyanları, rəssamların adlarını, memarlıq və təsviri incəsənət əsərlərini onların aid olduğu zamana əsasən sıralayın (qədimdən ən yeniyə doğru). Cavabları cavablar vərəqindəki cədvələ yazın. Nəzərə alın ki, cədvəldə yalnız seçilmiş vahidin müvafiq rəqəmi yazılır.

| (1) **27. Təqdim olunan incəsənət nümunələrini yaranma vaxtına əsasən sıralayın.** | | | |
|---|---|---|---|
| 1. | 2. | 3. | 4. |
|  |  |  |  |

| (1) **28. İncəsənət nümunələrini yaranma vaxtına əsasən sıralayın.** | | | |
|---|---|---|---|
| 1.  | 2.  | 3.  | 4.  |

| (1) **29. İncəsənət nümunələrini yaranma vaxtına əsasən sıralayın.** | | | |
|---|---|---|---|
| 1. | 2. | 3. | 4. |
|  |  |  |  |

(3) **№ 30 nömrəli tapşırıq.** ***Uyğunluğun müəyyən edilməsi*** **-** A sahəsində verilən Pikassonun əsərlərini B sahəsində rəssam üçün ilham mənbəyinə çevrilən incəsənət nümunələrinə uyğunlaşdırın. Nəzərə alın ki, bir nümunəyə yalnız bir incəsənət nümunəsi uyğun gəlir.

**A.** 1.



2.



3.



**B.** ა)



ბ)



გ)



დ)



ე)



(3) **№ 31 nömrəli tapşırıq.** ***Uyğunluğun müəyyən edilməsi*** **-** B sahəsində təqdim olunan rəsmləri A sahəsində verilən üslublara uyğunlaşdırın. Nəzərə alın ki, bir üsluba yalnız bir rəsm uyğun gəlir.

| | | | |
|---|---|---|---|
| **A.** 1. Puantilizm | 2. Akademizm | 3. Simvolizm | |
| **B.** ა.  | ბ.  | გ.  | დ.  |
| ე.  | | | |

## Yazılı tapşırıqların təlimatı

Tapşırıqları diqqətlə oxuyun və onları dərk edin.

Yazı işi başa düşülən xətlə yazılmalıdır. Oxunması çətin olan hissələr düzəldilməyəcək və qiymətləndirilərkən nəzərə alınmayacaq.

Hər iki yazılı tapşırıq təlimatla müşayiət olunur. Bu tapşırıqlara elə bir şəkildə cavab verməlisiniz ki, yazı işi məna cəhətdən bütöv, dərk edilmiş olsun və suallara ayrı-ayrılıqda verilən cavabların mexaniki cəmi olmasın.

Fikrinizi aydın, dəqiq və əsaslandırılmış şəkildə formalaşdırın. Yazı işi arqumentasiya (öz fikirlərini nümunələrlə əsaslandırmaq) və müstəqil düşünmə qabiliyyətini nə dərəcədə yaxşı göstərdiyinə görə qiymətləndiriləcək.

Mülahizə məntiqi cəhətdən dəqiq aparılmalı, fikir aydın şəkildə ifadə edilməlidir.

Yazı işini cavablar vərəqinə köçürün.

Cavablar vərəqində buraxılmış səhvin üstündən xətt çəkin, onu nə mötərizəyə alın, nə də qaralayın.

(4) № 32 tapşırıq. Təqdim edilən kompozisiyalar Qədim Yunan Mifinin bədii interpretasiyasıdır. Bu kompozisiyalarda obrazın məzmun, ideya və bədii xarakterik xüsusiyyətləri aydın görünür. Dörd əsərdən birini seçin, təhlil edin və müəyyənləşdirin:

1.



2.



**3.** 4.





ა. Rəssam hansı mifin interpretasiyasını yaradıb? Əsərin məzmun və vizual uyğunluğunu müzakirə edin;

ბ. Əsərin bədii xüsusiyyətlərini xarakterizə edin və onların bədii obrazın xarakterini çatdırdığına kömək edib-etmədiyini izah edin. Əsəri dövrü ilə əlaqələndirin. Cavabları sübutlarla əsaslandırın.

(15) **№ 33 Tapşırıq. İncəsənət nümunəsinin təsviri-təhlili**
Aşağıda verilən incəsənət nümunəsini dərk edin, təhlil edin və qiymətləndirin.



**Tapşırıqları göstərişlərə əsasən yerinə yetirin:**

(3) **33.1** Rəsmi təsvir və xarakterizə edin; verilmiş kompozisiya hansı janra aiddir? Təqdim olunan nümunənin hansı təsviri incəsənət növünə aid olduğunu material və texnikaya əsasən müəyyənləşdirin;

(3) **33.2** Rəsmdə bədii obrazın xarakterini yaratmaq üçün müəllifin hansı təsvir vasitələrindən və üsullarından istifadə etdiyini təhlil edin və qısa şəkildə yazın;



(3) **33.3** Bədii-üslubi xüsusiyyətlərə əsasən cərəyanı müəyyənləşdirin; təqdim olunan incəsənət əsərinin hansı ölkəyə və dövrə məxsus olduğunu müəyyənləşdirin, müəllifin adını qeyd edin.

(3) **33.4** Əsəri dəyərləndirin – öz münasibətinizi bildirin, müzakirə edin və fikrinizi əsaslandırın;

(3) **33.5** Təsirlər barədə mühakimə yürüdün, əsəri tarixi-mədəni və s. konteksdə təhlil edin.